

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 91 (21.752)

13 may 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – IV İslam Həmrəyliyi Oyunlarının açılışının həyəcan və sevincini yaşayıb.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, “Bakı-2017” İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin və digər rəsmi şəxslər əyləşiblər.

IV İslam Həmrəyliyi Oyunlarının iştirakçısı olan ölkələrin idmançılarının tribunaların önündən keçidi olub. Nəhayət, stadiona Müslüm Maqomayevin məşhur “Azərbaycan” mahnısının sədaları altında ev sahibi – Azərbaycan komandası daxil olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamlayıblar.

Hərbçilər İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını Azərbaycan bayrağının yanında qaldırıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarını açıq elan edib.

IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi Bakı Olimpiya Stadionu və Dənizkənarı Bulvar üzərində möhtəşəm atəşfəşanlıqla bitib.

# Heydər Əliyev Muzeyi:

## Müstəqil Azərbaycanın dövlətçilik məbədi




***Naxçıvan şəhərinin baş meydanında əzəməti və memarlıq quruluşu ilə diqqəti cəlb edən bir bina var. Üzərində böyük hərflərlə “MUZEY” yazılmış bu abidəbinada xalqımızın ümummilli liderinin həyat və fəaliyyətini özündə əks etdirən Heydər Əliyev Muzeyi yerləşir. Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərsə də, bunlar içərisində Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyi xüsusi yer tutur.***

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini yeni yaranmış digər muzey və mərkəzlərdən fərqləndirən əsas cəhət budur ki, bu muzey ulu öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycanın rəhbəri kimi qurub-yaratdığı, 90-cı ildən isə qoruyub saxladığı və sonrakı illərdə himayəsi ilə günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılmışdır. Həmçinin bu muzey ümummilli liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir. Naxçıvandakı Heydər Əliyev Muzeyinin özünəməxsus səciyyəvi cəhətlərindən biri də burada ulu öndərin muzeyin yerləşdiyi regionla əlaqələrinə dair xeyli eksponatların mövcud olmasıdır.

Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla Naxçıvan şəhərində yaradılmışdır. Bu sərəncamın imzalanması Heydər Əliyev şəxsiyyətinə olan sonsuz ehtiramın bariz nümunəsi kimi tarixi, siyasi və mənəvi zərurətdən irəli gəlmişdir. Sərəncamın imzalanmasından ötən qısa zamanda Naxçıvan şəhərinin mərkəzində Heydər Əliyev Muzeyi yaradılmış və muzey 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır.

Qeyd edək ki, hər bir xalq onun tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq onlara həsr edilmiş müxtəlif xatirə kompleksləri və muzeylər yaradır, adını park və meydanlarda, küçələrdə əbədiləşdirirlər. Belə şəxsiyyətlərin həyatı və fəaliyyəti tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılır, böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində bu dəyərlər əsas meyar kimi təbliğ edilir. Xalqımızın tarixi taleyində mühüm rol oynayan ulu öndər Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Vurğulamaq yerinə düşər ki, ümummilli liderin adının əbədiləşdirilməsi prosesi də ilk dəfə Naxçıvanda başlanmışdır. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1983-cü il 7 may tarixli fərmanı ilə Ona ikinci dəfə “Sosialist Əməyi Qəhrəmanı” adı verilmiş və bundan sonra ilk dəfə olaraq doğulub boya-başa çatdığı Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında büstü ucaldılmışdır. 1996-cı il may ayının 10-da isə “Naxçıvan” Sərhəd Dəstəsinin qərargahı önündə ulu öndərin büstünün açılışı olmuşdur. Həmin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“...Bu gün biz, sadəcə olaraq, öz istəyimizi, məhəbbətimizi və onun gördüyü işləri qiymətləndirmək naminə bu kiçik işləri burada, Naxçıvan Muxtar Respublikasında həyata keçiririk... Dünya siyasət məktəbində, dünya kəşfiyyat məktəblərində böyük bir Heydər Əliyev kursu keçilir. Nəyə görə bizim özümüzdə bunlar olmamalıdır?.. Ancaq biz etməliyik. Bizim – naxçıvanlıların buna daha çox haqqı var. Haqqı var, həm də mənən borclarıdır. İnsanlara sağlığında qiymət vermək lazımdır...”***

Muxtar respublika rəhbərinin söylədiyi bu fikirlər zaman keçdikcə öz təsdiqini tapmış, bu sahədə görülən işlərin məntiqi davamı kimi 1999-cu ildə yaradılan Heydər Əliyev Muzeyi dahi şəxsiyyətin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürmüş və bu gün də həmin missiyanı uğurla həyata keçirir. Artıq 18 ildir, fəaliyyət göstərən Heydər Əliyev Muzeyi həm naxçıvanlıların, həm də bu qədim Azərbaycan diyarına üz tutan qonaqların ən çox ziyarət etdiyi ünvanlardan birinə çevrilmişdir. Yaradıldığı dövrdən cari il may ayının 1-dək bu muzeyi 280 mindən çox tamaşaçı ziyarət etmişdir ki, bu ziyarətçilərin 28 mindən çoxu xarici ölkə vətəndaşı olmuşdur.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək muzeyin ekspozisiyası ilə tanış olmuşdur. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar bu gün burada nümayiş etdirilir. Muzeydə nümayiş etdirilən eksponatlar görkəmli dövlət xadimi Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılmış, hər mərhələ, hər bir tarixi hadisə ilə bağlı dahi şəxsiyyətin fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları ekspozisiyada öz əksini tapmışdır. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Muzeyin direktoru Ramil Orucəliyevdən aldığımız məlumata görə, 420 ekspozisiyası ilə fəaliyyətə başlayan muzeydə hazırda 4600-dən çox eksponat nümayiş etdirilir. Buradakı kitabxanada isə 603 adda 1200-dən çox kitab saxlanılır.

Xatırladaq ki, 2005-2006-cı illərdə əsaslı şəkildə yenidən qurulan muzey 2006-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. 564 kvadratmetrlik ekspozisiya zalından ibarət muzeyin kompozisiya, dizayn, işıq və ornament tərtibatı yüksək zövqlə işlənmişdir. Burada tamaşaçılara lazımi muzey xidməti göstərmək üçün kitabxana yaradılmış, ulu öndərimiz haqqında çəkilmiş filmləri seyr etmək üçün monitor yerləşdirilmiş, kompüter dəstləri quraşdırılmış, muzeyin *(www.aliyev-museum.nakhchivan.az)* internet saytı yaradılmışdır.

Muzeyin zəngin ekspozisiyası onu seyr edən hər kəsin qəlbində dərin iz qoyur, yüksək təəssürat yaradır. Dahi şəxsiyyətin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, xüsusilə gənc nəsil üçün əsl həyat məktəbidir.

Azərbaycanın 40 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətini, ölkəmizin tarixi taleyində oynadığı misilsiz rolunu, əvəzsiz xidmətlərini özündə ehtiva edən Heydər Əliyev Muzeyi respublikamızda analoqu olmayan bir məbədgahdır. Bütün Heydər Əliyev sevənlərin ziyarətgahına çevrilmiş muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək gəncləri dahi Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır. Muzeydə nümayiş etdirilən eksponatlar dahi şəxsiyyətin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxşaxəli fəaliyyəti barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayır. Heydər Əliyev Muzeyində hər bir eksponat ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Burada nümayiş etdirilən eksponatlar yaradıcı insanlar üçün ilham mənbəyi, elm adamları üçün isə dəyərli məlumatlar toplusudur. İl ərzində burada ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə bağlı aidiyyəti təşkilatlarla elmi konfranslar keçirilir, muzeyə tələbələrin və məktəblilərin ekskursiyaları təşkil olunur, onlar üçün lektoriyaların və açıq dərslərin keçilməsi təmin edilir.

Hər il ümummilli lider Heydər Əliyevin anadan olduğu gün – may ayının 10-u Naxçıvan Muxtar Respublikasında böyük təntənə ilə qeyd olunur. Bu il görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünün yüksək səviyyədə, eyni zamanda bayram əhval-ruhiyyəsi ilə qeyd olunması da hər kəsin yaddaşında xoş xatirə kimi qalıb. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dahi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, tədbir iştirakçıları ilə birlikdə Heydər Əliyev Muzeyinə gələrək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb. Ali Məclisin Sədri Heydər Əliyev Muzeyinə yeni eksponatlar təqdim edib.

Bəli, Heydər Əliyev Muzeyi hər bir azərbaycanlı üçün Azərbaycançılıq və dövlətçilik məbədidir. Bu məbəddə hər bir eksponatın böyük dəyəri var. Bu dəyəri sözlə anlatmaq çox çətindir, daha doğrusu, yetərli deyil, ən yaxşısı yerində görmək və hiss etməkdir.

*Muzeyi ziyarət edən qonaqlar sonda “Xatirə kitabı”na öz ürək sözlərini yazırlar. Bu kitabda kimlərin imzası yoxdur ki? Müxtəlif ölkələrin dövlət başçılarından tutmuş hökumət rəhbərlərinədək, beynəlxalq qurumların rəhbərlərindən tutmuş Azərbaycanda akkreditasiya olunmuş xarici ölkələrin səfirlərinədək. Mən isə yazını Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olduqdan sonra “Xatirə kitabı”nda öz düşüncələrini ifadə etmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin öz sözləri ilə tamamlamaq istərdim:* ***“...Ulu öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər. Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır”.***

✍ Səbuhi HƏSƏNOV

**_Qədim Naxçıvanımızın 5 minillik tarixində 20 illik zaman məsafəsi o qədər də böyük rəqəm deyil. Amma ötən bu müddətdə görülən işlərin həcmi çox böyükdür. Ötən əsrin 90-cı illərinin əvvəllərini xatırlayanda bunu daha aydın şəkildə görmək olar. Həmin vaxtlar blokada şəraitində olan Naxçıvanımız özünün ağır günlərini yaşayırdı. Bir tərəfdən məkrli ermənilərin torpaqlarımıza olan hücumları, digər tərəfdən də əhalinin üzləşdiyi çətinlik və problemlər həyat səviyyəsinə təsir edirdi. Qaz, elektrik enerjisi, ərzaq sarıdan xeyli çətinliklər var idi. Məhz əhalinin belə bir çətin günündə dahi şəxsiyyət Heydər Əliyev Moskvadan doğma Vətəninə qayıtdı. Onun 1990-1993-cü illərdə Naxçıvanda yaşaması, Ali Məclisin Sədri kimi fəaliyyəti qədim diyarı təhlükələrdən xilas etdi._**

# Ulu öndər Heydər Əliyev yoluna sədaqət sərhəd və dağ rayonlarını inkişafa qovuşdurub

Ötən əsrin 90-cı illərinin əvvəllərində mənfur qonşularımızın hücumuna məruz qalan, ancaq düşmən qarşısında məğrur dayanan bölgələrimizdən biri də Sədərək rayonu idi. Həmin dövrdə torpağına, Vətəninə qəlbən bağlı olan ulu öndərin apardığı qətiyyətli mübarizə, ən çətin məqamlarda belə, xalqla birlikdə olması muxtar respublika əhalisinin sabaha olan ümidlərini artırdı. Dahi şəxsiyyətin bir neçə dəfə Sədərəyə gəlməsi insanları ruhlandırdı. Cəbhədə şəhidlər verilməsinə baxmayaraq, insanlar sabaha olan inamlarını itirmədilər.

Ulu öndər bu bölgə üçün nə lazımdırsa edir, onun müdafiəsi, qorunub saxlanılmasına çalışırdı. Bu baxımdan hələ keçmiş Sovetlər Birliyi dövründə uzaqgörən siyasətçinin təşəbbüsü ilə düşmənin iki addımlığında salınan qəsəbənin böyük əhəmiyyəti var idi. Ulu öndər özü də bunu yüksək qiymətləndirərək deyirdi: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər... Ona görə mən burada o vaxtlar bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar".***

Bəli, bir vaxtlar ulu öndərimizin təşəbbüsü ilə salınan qəsəbə indi abad, gözəl bir yaşayış məntəqəsinə çevrilib. Günü-gündən gözəlləşən, müasirləşən, yeniləşən rayon mərkəzi şəhər görkəmi alıb. Son illər inşa olunmuş yeni fərdi mənzillər bu yerin simasını daha da gözəlləşdirib. Burada yaşıllıqlar, gülzarlıqlar, abad guşələr az deyil. Milli Ordumuzun əsgərləri tərəfindən ayıq-sayıq qorunan sərhəd bölgəsinin torpaqlarından bu gün barıt qoxusu deyil, gül-çiçək ətri gəlir. Düşmənin iki addımlığında yerləşən, 2 min 174 nəfər sakini olan Heydərabad qəsəbəsi isə özünün xoş günlərini yaşayır.

Sərhəd bölgəsi sakinlərinin firavan yaşayışı üçün məqsədyönlü tədbirlər bu gün də uğurla həyata keçirilir, Heydərabad qəsəbəsindəki park və bağlar, yaşıllıqlar, gülzarlıqlar, yeni binalar, sosial obyektlər, həmçinin Sədərək və Qaraağac kəndlərinin müasir siması ürəkaçandır. Fərəhləndirici məqamlardan biri də geniş bir ərazidə pay torpaqlarından səmərəli şəkildə istifadə olunması, daha çox taxıl əkilməsidir. Bir vaxtlar müharibə meydanına çevrilən bu torpaqlarda indi bolluq, bərəkət var. Sədərəyin zəhmətə bağlı insanları torpaqların qayğısına qalır, ona ruzi, bərəkət mənbəyi



kimi baxır, yaradılan şəraitdən, imkanlardan səmərəli istifadə edirlər. Göstərilən dövlət qayğısı sayəsində yurda möhkəm tellərlə bağlanan sədərəklilər bu yerləri laləzarlığa çeviriblər.

Sərhəd bölgəsində daha çox taxıl əkilib-becərilir. Torpaq mülkiyyətçiləri və sahibkarlar çörəyə olan tələbatı yerli istehsal hesabına ödəməyə çalışırlar. Təbii ki, bütün bunlar iki addımlıqda yerləşən məkrli düşmənə, iqtisadi məngənədə boğulan nankor ermənilərə gözdağıdır. Düşmən ərazilərində yerləşən torpaqların, eləcə də yaşayış məntəqələrinin miskin görünüşünü, çılpaqlığını buradan aydın seyr etmək olar. Sərhəd postlarımızda, yüksəkliklərdəki əsgərlərimiz çiçəklənən diyarımızı gördükcə ruhlanır, səngərdə daha ayıqsayıq dayanır, Vətəni göz bəbəyi kimi qoruyurlar. Qorunan torpaq isə əkilib-becərilir, burada quruculuq tədbirləri həyata keçirilir, əhəmiyyətli sosialyönümlü obyektlər tikilib istifadəyə verilir.

Yaşı 80-ə yaxın olan, qanlı-qadalı günlərdə sərhəddə öndə dayanan Teymur Rzayev deyir ki, bizdə Vətənə sevgi, torpağa, doğma ocağa məhəbbət hissləri güclüdür. Bu hisslər, duyğular indi də hər bir gəncə, yeniyetməyə aşılanır. 1995-ci ildən Sədərək torpaqlarında bir canlanma başlanıb. Araz çayından suyun gətirilməsi üçün beşpilləli nasos stansiyası tikilib istifadəyə verilib, ayrı-ayrı yerlərdə subartezian quyuları qazılıb. Vaxtilə şəhid qanı axıdılan torpaqlar bu gün gülüstana dönüb, yaşıllığa qərq olub.

Heydərabad qəsəbəsində müharibədən zərərçəkmiş binalar təmir olunub, eyni zamanda yeniləri tikilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2000-ci il 15 mart tarixdə imzaladığı "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" Sərəncam sərhəd bölgəsində həyata keçirilən işlərə təkan verib.

İlk növbədə, Heydərabad qəsəbəsindəki 75 ev yenidən bərpa olunub. Rayonda 35 kilovoltluq yarımstansiya quraşdırılıb, qonşu Türkiyədən alınan elektrik enerjisinin fasiləsiz verilməsi üçün bütün tədbirlər görülüb. Qaraağac kəndində 120 şagird yerlik məktəb binası tikilib. Ayrı-ayrı yaşayış məntəqələrinə gedən yollar abadlaşdırılıb, Sədərək kəndindəki Şəhidlər xiyabanı yenidən qurulub, bulaq-abidə kompleksi yaradılıb, evlərə içməli su xətləri çəkilib, torpaqların suvarma suyu ilə təminatı yaxşılaşdırılıb. 1500 hektardan çox istifadə olunmayan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib.

Bu bölgədə həllivacib məsələlərin diqqətdə saxlanılması, göstərilən qayğı öz bəhrəsini verib. Sərhəd bölgəsi yeni günlərinə, xoşbəxtliyinə qovuşub. Bütün bunlar ümummilli lider Heydər Əliyevin arzuları idi. Dahi şəxsiyyətin yoluna sədaqətli, yurdsevər insanlar bu arzuları reallığa çevirib.

2010-cu ilin oktyabr ayında muxtar respublikaya tarixi səfəri zamanı ölkə başçımız İlham Əliyev sərhəd bölgəsində də olub, yenidən



qurulan Heydərabad qəsəbəsinin açılış mərasimində iştirak edib. Prezident burada görülən işləri yüksək qiymətləndirərək deyib: ***"Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da böyük hadisədir".***

Bu gün Heydərabad qəsəbəsi ulu öndərimizin adına layiq bir yaşayış məntəqəsi, rayon mərkəzidir. Günü-gündən genişlənən, abadlaşan bu qəsəbə səliqə-sahmanı, yaşıllığı, gözəlliyi, yaraşıqlı binaları ilə diqqəti çəkir.

Bu gün Sədərək rayonu quruculuq tədbirləri ilə yanaşı, aqrar sahədə qazandığı nailiyyətlərlə də seçilir. 2016-cı ildə rayonun torpaq mülkiyyətçiləri 1982 hektar dənli və dənli-paxlalı bitkilər əkini sahəsindən 6 min 407 ton məhsul əldə ediblər. Hektardan məhsuldarlıq 32,3 sentner olub. Bu isə əvvəlki illərlə müqayisədə çoxdur. Sərhəd bölgəsində taxıl emalı müəssisəsinin tikilib istifadəyə verilməsi, çörəkbişirmə sexlərinin fəaliyyəti əhalinin taxıla, çörəyə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Torpaq mülkiyyətçiləri bu ilin bol məhsulu üçün də əsaslı zəmin yaradıblar. Onların sözlərinə görə, bu gün gənclər də əkin-biçin işlərinə həvəslə girişir, taxılçılıqla yanaşı, meyvəçilik, tərəvəzçilik, üzümçülüklə məşğul olurlar, malqara bəsləyirlər. Sərhəd bölgəsində üzüm və meyvə yetişdirən bağbanlar bol məhsul toplayırlar. Qazanılan uğurlar xoş güzəran üçün təminat verir, bazara, həm də Naxçıvan şəhərindəki kənd təsərrüfatı məhsullarının satışı yarmarkasına çeşid-çeşid məhsullar çıxarılır.

Bu gün Sədərək kimi bütün bölgələrimiz, o cümlədən dağ rayonu Şahbuz da son 20 il ərzində inkişaf edib, çiçəklənib. Müstəqillik illərində Şahbuz qəsəbəsi şəhər statusu alıb. Dağların qoynunda boy göstərən bu yaşayış məntəqəsi muxtar respublikamızın ən gənc şəhəridir. Təmizliyi, yaşıllığı, yeni, möhtəşəm binaları ilə diqqəti çəkir. Şahbuz rayonu turizm baxımından da əlverişli məkandır. Bura təmiz abhavası, sərin bulaqları ilə seçilir.

Çingiz Haqverdiyev Şahbuz şəhərinin yaşlı sakinlərindəndir. 90-dan çox yaşı var. Ömrünün bu vədəsində el ağsaqqalında yaşayıb-yaratmaq, fəaliyyət göstərmək arzusu yüksəkdir. Uzun illər çalışdığı rayon Mədəniyyət və Turizm Şöbəsində onu fəal ictimaiyyətçi, təcrübəli mədəniyyət işçisi kimi tanıyırlar. El ağsaqqalı deyir ki, dağ rayonunda ulu öndər Heydər Əliyev yoluna sədaqət hər addımda hiss edilir. Çingiz Haqverdiyev ötən illəri də xatırlayaraq bildirir ki, Şahbuzun 20-25 il bundan əvvəlki vəziyyətini bu gün də unutmamışıq. Palçıqlı küçələr, miskin görünüşlü evlər, zülmətə bürünmüş kəndlər adamın qəlbini sıxırdı. Üstəlik də, ərzaq sarıdan xeyli çətinliklər vardı. Bir parça çörək əldə etmək müşkül məsələyə çevrilmişdi, başımıza mərmi, güllə yağırdı. Ötən əsrin 90-cı illərinin əvvəllərində biz bu ağır günləri yaşamışıq. İndiki gənclərimiz gərək bunları yaddan çıxarmasınlar. Əksinə, doğma ocağa daha möhkəm bağlansınlar. Çünki xoşbəxtlik də, firavan həyat da doğma ocaqdadır. Şahbuz şəhərinin mərkəzində yerləşən evimdən hər səhər küçəyə çıxanda qarşımda gözəl bir mənzərə canlanır. Rahat yollar, nümunəvi park və istirahət yerləri, yaşıllıqlar sevincimizi birəbeş artırır. Nəvə-nəticələrimin əhatəsində özümü xoşbəxtlərin xoşbəxti sanıram.

El ağsaqqalı deyir ki, məhəlləmizdə çörəkbişirmə sexi də fəaliyyət göstərir. Yerli taxılın unundan bişirilmiş çörəklərin ətri ətrafı bürüyür. Qürurlanıram ki, taxılımız, çörəyimiz boldur. İndiki gənclik əvvəlki çətin günləri görməyib. Odur ki, xoşbəxt, firavan günlərimizin qədrini bilməliyik. Bu gün Şahbuz şəhərində hansı tərəfə gedirsənsə, bir yeniliyin, quruculuğun şahidi olursan. Bütün bunlar rayon sakinlərinin xoşbəxtliyi, firavanlığı üçündür.

Şahbuz şəhərindən ucqar dağ və sərhəd yaşayış məntəqələrinə gedən yollar öz rahatlığı, müasirliyi ilə seçilir. Rayon mərkəzindən ən ucqar yaşayış məntəqəsinə belə, 25-30 dəqiqəyə çatırsan. Hamar yollarla irəlilədikcə göz önündə füsunkar təbiət mənzərələri canlanır. Günügündən müasirləşən kəndlər dağların əhatəsində qərar tutub. Kəndlərdə mühüm infrastruktur layihələri həyata keçirilir. Aparılan quruculuq tədbirləri dağ kəndlərinə şəhər mədəniyyəti gətirir. İstifadəyə verilən kənd və xidmət mərkəzləri, müasirtipli məktəblər, mədəniyyət və səhiyyə ocaqları xidmətin səviyyəsini yüksəldir.

Bəli, ulu öndər Heydər Əliyev yolu quruculuq, inkişaf və tərəqqi yoludur. Bu yol bizi daha işıqlı sabahlara, parlaq gələcəyə doğru aparır. Bu gün Naxçıvan öz inkişafının yeni mərhələsini yaşayır, müasir tariximizin şanlı səhifəsini yazır. Naxçıvanın sosial-iqtisadi inkişafı düzgün idarəetmənin, Vətənə, doğma ocağa olan bağlılığın, ən başlıcası isə ümummilli lider Heydər Əliyev yoluna sədaqətin nəticəsidir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikamızın inkişafını yüksək qiymətləndirərək deyib: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına layaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

**Məhəmməd FƏRƏCOV**

## Muxtar respublika ərazisində 520 hektar sahədə yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub



Müasir dövrdə yaşıllıqların artırılması yönündə atılan hər bir addım bizə sağlam mühitdə yaşamağa və təbiətin saysız-hesabsız nemətlərindən hərtərəfli istifadə etməyə şərait yaradır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, 2017-ci ilin yaz və payız əkini mövsümündə muxtar respublika ərazisində, ümumilikdə, 520 hektar sahədə meşəsalma, meşəbərpa və yeni meyvə bağlarının salınması planlaşdırılır.

Cari ilin yaz əkini mövsümündə muxtar respublika ərazisində 225 hektar sahədə yeni meyvə bağları salınıb, meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib. Aparılan yaşıllaşdırma tədbirlərində 200 min ədəddən çox meşə, meyvə tingləri, həmişəyaşıl ağac, bəzək və gül kolları əkilib. Tingə olan tələbatın yerli sortlarla təmin edilməsi üçün 450 min ədəddən çox əkinəyararlı standart ting yetişdirilib. Xüsusilə üzümçülüyün və tutçuluğun inkişaf etdirilməsi, yerli meyvə tinglərinin yetişdirilməsi sahəsində mühüm işlər görülüb, 100 min ədəddən artıq tut və üzüm tingləri yetişdirilib. Hazırda dibçəkdə yetişdirilmiş tinglər vasitəsilə əkinbərpa və aqrotexniki qulluq işləri davam etdirilir.

**Səbuhi HƏSƏNOV**

***Sığorta zəmanəti müasir cəmiyyətdə mühüm tələbatlar sırasında yer alır. Belə ki, sosial-iqtisadi inkişaf sürətləndikcə, ümumi sığorta münasibətləri dərinləşdikcə insanların rifahı yüksəlir, hər yerdə və hər zaman rast gəlinə biləcək gözlənilməz hadisələrə qarşı sığortalanmaq ehtiyacı daha da qabarıq şəkildə özünü göstərir. Müasir dünyada geniş yayılmış sığorta növlərindən biri olan icbari tibbi sığorta bu baxımdan hər bir insanın sağlamlığının qorunmasında əhəmiyyətli rol oynayır.***

# Muxtar respublikamızda səhiyyənin inkişafı icbari tibbi sığortanın tətbiqi üçün əlverişli zəmin yaradıb

Ölkəmizdə və muxtar respublikamızda mütərəqqi yenilik kimi icbari tibbi sığortanın tətbiqi insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş mühüm bir addımdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 may tarixli Fərmanı ilə bu il iyul ayının 1-dən Sədərək rayonunda həyata keçiriləcək icbari tibbi sığortanın tətbiqi ilə muxtar respublikamızda bu vacib sahədə də işlərin genişləndirilməsinə start verilib. Fərmanda qeyd olunduğu kimi, burada məqsəd icbari tibbi sığorta sisteminin tətbiqini təmin etməklə səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə uyğunlaşdırmaq, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltməkdir. Bu məqsədlə həmin vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən aidiyyəti dövlət qurumları qarşısında konkret vəzifələr qoyulub.

Sığorta hər bir insanın qarşılaşa biləcəyi riskli hallarda ona maddi dəstək verir. Sağlamlığın bərpa olunması üçün zəruri olan tibbi xidmətlər bəzi hallarda insanların ailə gəlirlərinin həcmini dəfələrlə aşan məbləğdə xərclər tələb etdiyindən, yaranan belə çətin vəziyyət həmin şəxslərin özünün və ailəsinin maddi durumunun ağırlaşmasına səbəb olur. Bu mühüm cəhəti nəzərə alaraq bazar iqtisadiyyatı şəraitində hər bir ailə büdcəsinin qorunması, eyni zamanda səhiyyənin maliyyələşdirilməsi məqsədilə tətbiq olunan icbari tibbi sığorta sistemi, bu mənada, hər bir kəsin qarşılaşa biləcəyi maddi problemlərin həllinə kömək edən mütərəqqi təcrübədir.

İcbari tibbi sığortanın faydaları çoxdur. Belə ki, elmin inkişafı ilə səhiyyə xidmətlərində də bahalı müalicə və dərman vasitələrinin tətbiq olunması bəzi hallarda bir çox vətəndaşların bu xidmətlərdən istifadə imkanlarını məhdudlaşdırır. Bununla da, sağlamlığını bərpa etmək istəyən həmin insanlara zərər dəymiş olur. Digər tərəfdən maddi səbəblərdən göstərilməyən tibbi xidmətlər səhiyyə işçisinin itirilmiş qazancı sayılır ki, bu da səhiyyəyə investisiya qoyuluşu və tibbi kadrların marağının artırılması baxımından arzuedilən hal deyil. Ona görə də tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və dolayısı ilə, vətəndaşların sağlamlığının qorunması baxımından icbari tibbi sığorta sisteminin tətbiqi ölkəmizdə və muxtar respublikamızda insan amilinə göstərilən diqqət kimi çox əhəmiyyətli bir yenilikdir. Qeyd edək ki, bu yeniliyin tətbiqi üçün Naxçıvan Muxtar Respublikasında geniş imkanlar vardır. Muxtar respublikamızda səhiyyə infrastrukturunun tamamilə yenidən qurulması, müasir tələblərə cavab verən tibbi avadanlıqlardan istifadə, ixtisaslı tibbi kadrların mövcudluğu icbari tibbi sığortanın tətbiqi üçün əlverişli zəmin yaradır.

İcbari tibbi sığorta ümumi sığorta işinin tərkib hissəsidir. Həmrəylik prinsiplərinə əsaslanan mühüm bir layihə kimi icbari tibbi sığorta əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət vermək və eyni zamanda səhiyyənin də maliyyələşdirilməsini təkmilləşdirmək məqsədi daşıyır. Dayanıqlı bir sistem sayəsində yaradılmış ümumi sığorta fondu hesabına müraciət edən pasiyentlərin müayinəsi və müalicəsi aparılır. Tibbi sığortanın tətbiqi ilə aparılan müalicə işinin keyfiyyəti də dünya təcrübəsi ilə artıq özünü sübut edib. Belə ki, inkişaf etmiş ölkələrdəki səhiyyə xidmətlərinin bugünkü səviyyəsində burada tətbiq olunan icbari tibbi sığortanın da payı az deyil. Sığorta münasibətlərinə qoşulmuş tərəflər sığorta hadisəsinin baş verməməsi üçün maraqlı olduğu qədər, sığortalı şəxslər də daha keyfiyyətli xidmət tələb edərək səhiyyə sistemində əsl sağlam rəqabətə zəmin yaradır. Nəticədə, bu rəqabət həkim və digər tibbi personalın ixtisasının təkmilləşdirilməsinə zərurət yaradır. Yaradılmış sığorta fondu hesabına yüksək əməkhaqqı alan ixtisaslı həkim kadrlar yalnız öz işini keyfiyyətlə yerinə yetirməyə çalışdığından burada göstərilən tibbi xidmətlərin səviyyəsi də yüksəlir.

Pasiyentlərə gəldikdə isə onlar üçün icbari tibbi sığortanın faydaları daha çoxdur. Belə ki, bəzən maddi səbəblərdən insanlar tibbi xidmətlərdən imtina edirlər ki, bu da həyatda ən qiymətli nemət olan cansağlığının itirilməsi ilə nəticələnə bilir. Ancaq tibbi sığorta zəmanəti almış hər bir kəs ehtiyac yarandıqda heç bir maddi çətinlik çəkmədən müəyyənləşdirilmiş səhiyyə ocağına müraciət edə bilir. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ölkəmizin vətəndaşları, habelə müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təcili və təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə (ailə həkimi) xidməti, ambulator şəraitdə müayinə və müalicə, stasionar müalicə, ultrasəs müayinəsi, kompüter tomoqrafiya, maqnit rezonans tomoqrafiya kimi funksional-diaqnostik müayinələr, fizioterapevtik xidmətlər, laborator müayinələr, hamiləlik və doğuş xidmətləri, quduzluq, tetanus, ilan sancmaları zamanı təcili vaksinasiyalar, uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiya, həyatı vacib açıq və qapalı ürək-damar əməliyyatları, koxlear implantasiya kimi yüksək dəyərli əməliyyatlar da daxil olmaqla cərrahi əməliyyatlar və müxtəlif xəstəliklər üzrə ciddi dispanser müşahidə xidmətləri ala bilərlər.

İcbari tibbi sığorta mexanizminə gəldikdə, qeyd etmək lazımdır ki, bu sığorta növü səhiyyənin maliyyələşməsinin fərdi forması kimi səhiyyə müəssisəsi və müalicə almaq istəyən pasiyent arasındakı iqtisadi münasibətləri zəmanət altına almış olur. Bu mənada, icbari tibbi sığorta sistemi səhiyyə müəssisələrinin təklif etdiyi səhiyyə xidmətlərinin alıcısı kimi bu xidmətləri sığortalı pasiyentlərə pulsuz təklifetmə mexanizmidir. Bu olmadıqda, yəni sığortasız vətəndaşlar tibbi xidmətlər üçün müraciət etdikdə, aldıqları xidmətlərin və dərmanların dəyərinin hamısını öz hesablarından ödəməli olurlar. İcbari tibbi sığortanın tətbiqi isə səhiyyə müəssisəsinin maliyyələşməsini, xəstəxanalara ödənilən sığorta məbləğləri hesabına formalaşdırılmasını nəzərdə tutur. Buna görə də icbari tibbi sığortası olan vətəndaş öz ölkəsi daxilində istənilən vaxt müəyyənləşdirilmiş tibbi xidmətlərdən pulsuz istifadə edə biləcək.

Göründüyü kimi, icbari tibbi sığorta əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sağlamlığının qorunması istiqamətində həyata keçirilən çox mühüm bir layihədir. Bu sığorta sisteminin gələcəkdə kütləviləşməsi ilə insanların əziyyət çəkdikləri xəstəliklərin erkən mərhələdə aşkar edilməsi onların daha ağır mərhələyə keçidinin qarşısını alacaq, ən ucqar kəndlərdə belə, əhali keyfiyyətli tibbi xidmətlərlə təmin olunacaq, infeksion və digər xəstəliklərin səmərəli profilaktikası təşkil ediləcəkdir. Bu sığorta növünün tətbiqi ilə muxtar respublikamızda tibb xidmətləri sistemi daha da inkişaf edəcək və səhiyyəmiz, bu mənada, yeni inkişaf mərhələsinə keçəcək.

**✍ Əli CABBAROV**

*Bu yaxınlarda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev və sənətşünas Nizami Alıyevin “Bəhruz bəy Kəngərli taleyi” kitabı işıq üzü görüb. Müəlliflərin bu əsəri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyə və tapşırıqlarının həyata keçirilməsi istiqamətində görülən işlərin tərkib hissəsi kimi də diqqəti cəlb edir. Belə ki, ulu öndər hələ 2002-ci ildə – görkəmli rəssamın adını daşıyan muzeyin açılışında demişdir:* ***“Hesab edirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar”.***

# “Bəhruz bəy Kəngərli taleyi”

## *kitabı görkəmli rəssamın yaradıcılığına qayğının təzahürüdür*




Müəlliflərin apardıqları tədqiqat işləri Naxçıvanla yanaşı, Moskva və Tiflis şəhərlərini də əhatə edib. Həmin tədqiqatlar rəssamın həyat və yaradıcılığı ilə bağlı yeni faktları üzə çıxarıb. Bütün bunların hamısı 512 səhifəlik kitabda öz əksini tapıb. Aparılan tədqiqatlar rəssamın həyat və yaradıcılığından bəhs edən və sovetlər dövründə nəşr olunan bir neçə kitab və kataloqda təhrif olunan faktları da aradan qaldırmağa imkan verir. Kitabda rəssamın adının “Bəhruz bəy” kimi təqdim olunması, əslində, kommunist rejiminin ona qarşı etdiyi haqsızlıqlara etirazın ifadəsidir.

Kitabın əvvəlində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən Bəhruz bəy Kəngərlinin adının əbədiləşdirilməsi məqsədilə imzalanmış sərəncamlar yer alıb.

Qeyd etmək lazımdır ki, yeni nəşr ensiklopediya xarakterlidir. Başqa sözlə desək, burada Bəhruz bəy Kəngərli haqqında kifayət qədər yeni məlumatlar əldə etmək mümkündür. Kitabda “Kəngərlilər”, “Rəssamın dövrü və mühiti”, “Uşaqlıq illəri”, “Təhsil illəri”, “Sənət dünyası”, “Portret cizgiləri”, “Rəssam haqqında fikirlər”, “Ölməzlik”, “İthaflar”, “Kataloq” və “Arxiv” bölmələrinin yer alması da dediklərimizi təsdiqləyir. Rəssamın yaratdığı “Qaçqınlar” silsiləsinin ayrıca təqdimatını və təhlilini erməni təcavüzünün ifşası üçün çox tutarlı bədii-tarixi material saymaq olar. Bu bölmələrin hər biri cəmisi 30 il ömür sürmüş fırça ustasının təzadlarla dolu həyat yoluna işıq salmaqla yanaşı, oxucuları bir-birindən maraqlı, yeni faktlarla da tanış edir.

Kitabda rəssamın mənsub olduğu məşhur Kəngərlilər nəsli barəsində məlumat verən müəlliflər onların qədim türk tayfalarından biri olması və bu nəslin Azərbaycan tarixini şərəfləndirən şəxsiyyətlər yetişdirməsi barədə də ətraflı yazırlar.

Nəşrin diqqətçəkən məqamlarından biri müəlliflər tərəfindən rəssamın yaradıcılığında geniş yer almış uşaq portretlərinin kimliklərinin müəyyən olunmasıdır. Müxtəlif mənbələrdən Kəngərli ailəsində böyüyən uşaqların fotolarını əldə edən tədqiqatçılar müqayisə nəticəsində həmin portretlərdə kimlərin təsvir edildiyini dəqiqləşdirməyə nail olublar. Bu uşaqların həyat yolunu izləyən kitab müəllifləri 30-cu illərdə repressiya dalğasının bu nəsildən də yan keçmədiyini üzə çıxarıblar. Malikanələri əllərindən alınmış uşaqlar bundan sonra ozamankı Sovetlər Birliyinin müxtəlif guşələrinə səpələniblər. Rəssamın qardaşı Rüstəm Belqorod vilayətinin Valuysk şəhərində Boris Şiraliyev adı altında yaşamağa məcbur olub, bacısı Gültac isə “Tahirova” soyadını qəbul etməklə təhlükədən xilas ola bilib.

Bəhruz bəy isə portretlərini çəkdiyi qohumlarını qorumaq üçün müxtəlif adlarla təqdim edib, onların naməlum qalmasına çalışıb. İş o yerə çatıb ki, o, həyat yoldaşı Hürnisəni əks etdirən əsəri də “Qaçqın xanım” adlandırmaqla, onun anonimliyini təmin edib. Yalnız rəssamın bacısı Mənsurənin sağlığında oğlu Xanlara “Qaçqın xanım” əsərində kimin təsvir edildiyini söyləməsi müəlliflərə əsərin əsl prototipinin kim olduğunu ictimailəşdirməyə imkan verib.

“Təhsil illəri” bölməsində rəssamın yenicə yaranmaqda olan sənət dünyası ilə yanaşı, onun gürcü dostları – Lado Qudiaşvili, Mixail Çiaureli və Ketevan Meqalaşvilidən söz açılıb.

Kitabın rəssamın dövrü və mühitindən söz açılan bölməsində Naxçıvanda ədəbiyyat, incəsənət və maarif sahəsində fəaliyyət göstərən ziyalıların gənc Bəhruza təsiri barədə maraqlı faktlar verilib.

1910-cu ildə Tiflisə rəssamlıq üzrə ixtisas təhsili almağa yollanan Bəhruz bəy Kəngərlinin oxuduğu yer haqqında məlumatın verilməsi, kitab müəlliflərinin əvvəllər kilsə olmuş həmin binanı tapmaları və onun müxtəlif fotolarını təqdim etmələri nəşrin müsbət xüsusiyyətlərindəndir.

“Rəssamın bədii irsi” bölməsində görkəmli fırça ustasının 7 il ərzində yaratdığı rəngkarlıq və qrafika əsərləri, teatr-dekorasiya nümunələri barəsində ilk dəfə məlumat verilir, onlar növ və janr üzrə təhlil olunur. Məlum olur ki, Bəhruz bəy Kəngərlinin 450 əsəri Bakıdakı Azərbaycan Milli İncəsənət Muzeyində, 58 ədədi isə Naxçıvandakı Bəhruz Kəngərli Muzeyində saxlanılır. Yaxşı haldır ki, bu siyahı “Kataloq” bölməsində bir qədər də zənginləşdirilib. Bu siyahıya rəssamın şəxsi kolleksiyalarda qorunan əsərləri də daxil edilib. İctimaiyyətə ilk dəfə təqdim olunan həmin əsərlərin sırasında “Bektaşilər”, “Dəniz mənzərəsi” və “Qızılgüllər” rəngkarlıq, “Mirzə Heydər Nəsirbəyov”, “Əsəd ağa Kəngərlinin portreti”, “Nazlı xanım Tahirova (Nəcəfova)” və sair qrafika əsərləri daxildir.

Bəhruz bəy Kəngərlinin bədii irsini janrlar üzrə təhlil edən müəlliflər onların bədii-texniki xüsusiyyətlərini ilk dəfə dərindən təhlil edib, daşıdığı bədii-estetik xüsusiyyətləri üzə çıxarıblar. Müəlliflərin rəssamın rəngkarlıq işlərində, xüsusilə də yaradıcılıq niyyətinin əksi olan kiçikölçülü əsərlərində yüksək sənətkarlıq nümunəsi sərgilədiyini vurğulamaları onun bədii irsinə verilən obyektiv dəyərləndirmədir.

“Portret cizgiləri” bölməsi isə məzmun etibarilə digər rəssamlara həsr olunmuş monoqrafiyalarda rast gəlinməyəcək bir müəllif yanaşmasının nəticəsidir desək, yanılmarıq. Müəlliflərin burada rəssamın avtoportretləri, ona həsr olunmuş ədəbi nümunələr, barəsindəki məqalələr və söylənilmiş fikirlər əsasında yaratdıqları “Bəhruz bəy Kəngərli obrazı” kifayət qədər oxunaqlıdır.

Rəssamın vəfatından bu günümüzə kimi onun barəsində görkəmli şəxsiyyətlərin və müxtəlif peşə adamlarının söylədiyi fikirlərin kitabda yer alması onun yaradıcı şəxsiyyət və sənətkar kimi dəyərləndirilməsi işində mühüm rol oynayıb.

Məşhur Kəngərlilər nəslinin nümayəndəsi olan Bəhruz bəy Kəngərliyə kommunist rejimi dövründə münasibət arzulanan səviyyədə olmasa da, müstəqillik illərində bu boşluğun doldurulması istiqamətində davamlı işlər görülüb. Kitabın “Ölməzlik” bölməsində bu işlər barədə ətraflı bəhs olunub.

Rəssamın Bakı və Naxçıvan muzeylərində qorunan şəxsi əşyaları haqqında verilən illüstrasiyalı məlumatlar onun maraq dünyasını və zövqünü duymağa imkan verir.

Zaman-zaman Bəhruz bəy Kəngərlinin ömür yolu ilə yaxından tanış olan yazıçı və şairlər, eləcə də rəssam və heykəltəraşlar onun obrazlarına fərdi münasibətlərini bədii şəkildə ifadə etməyə çalışıblar. Bunun nəticəsində Bəhruz bəy Kəngərlinin əhatəli obrazlar qalereyası yaradılıb ki, bunlarla kitabda tanış olmaq mümkündür.

Qeyd etmək lazımdır ki, müəlliflərin rəssamla bağlı üzə çıxardıqları arxiv materiallarını kitaba daxil etmələri onun məzmununu daha da zəngin və oxunaqlı edir. Kitab ingilis və rus dillərində yazılmış iki məqalə ilə tamamlanır. Bu da müxtəlif xalqların nümayəndələrini rəssamın yaradıcılığı ilə tanış etmək baxımından əhəmiyyətlidir.

*Ümumiyyətlə, “Bəhruz bəy Kəngərli taleyi” kitabı görkəmli sənətkarın anadan olmasının 125-ci ildönümünün qeyd olunduğu bir vaxtda milli təsviri sənətimizin inkişafında xüsusi rolu olan sənətkarın xatirəsinə ən yaxşı töhfə sayılmağa layiqdir. Kitabı Azərbaycan sənətşünaslığını zənginləşdirəcək sanballı tədqiqat əsəri hesab etmək olar.*

**Qafar QƏRİB**

Yazmasaq, olmur

## "Alayarımçıq müxbirlər"in cəviz sevdası

**Dəsgahdı vallah...**

Bu sosial şəbəkələr çoxlarını "analitik", "politoloq", "təhlilçi", "falabaxan", "qəzəlxan", "mərsiyəxan", "masabəyi" və sair və ilaxır edib. Əlinə telefon alan nə gəldi çəkir, yazır, şərh edir, moizə oxuyur, bir sözlə, min oyundan çıxır.

Düzdür, dövrümüzdə sosial şəbəkələrdən bacarıqla istifadə edən, lazımi informasiya alan, ağıllı təbliğat işi aparanlar da yetəri qədər çoxdur. Amma burada vaxt keçirənlərin, insanların hiss və duyğuları ilə oynayanların, cəmiyyətə fayda gətirən mütərəqqi işlərlə bağlı anti-təbliğat aparanların, ağzının qaytanı qaçanların, yalan informasiya yayaraq "sensasiya", "şok"…dalına düşən "alayarımçıq müxbirlər"in də sayı az deyil. Qarğa özünü quş, xəşil özünü aş bilən kimi, "alayarımçıq müxbirlər" də özlərini "mütəxəssis", "ekspert" hesab edib başlayırlar moizə oxumağa. Hətta bəzən irəli gedib insanların ailəsini, şəxsini belə, bütün qanunları pozaraq müzakirəyə çıxarır, onlara qara yaxır, işgüzar nüfuzuna zərbə vururlar. Yenə qanmayana birtəhər əlac tapılır... Havar bu yarımçıqların əlindən.




Yalan informasiya demişkən, ötən günlərdə 2-3 nəfər "mərsiyəxan", "alayarımçıq müxbir" paytaxtda otura-otura sosial şəbəkələrdə "üfləmişdi" ki, bəs Naxçıvanda cəviz ağaclarının əkininə qadağa qoyulub. Sonra yazdılar ki, cəviz ağaclarına vergi də tətbiq olunub, hələ bir az da irəli gedərək dedilər ki, on illərdir, barverən ağaclar "soyqırımına" məruz qalır, kəsilib talanır. Bu dezinformasiya muxtar respublikanın, xüsusilə daha çox cəviz ağacları olan dağlıq kəndlərin əhalisində əməlli-başlı narahatçılıq yaratmışdı. Çünki bu kəndlərdə bağında 50-dən artıq cəviz ağacı olan sakinlər var ki, onlar öz dolanışıqlarını bu bağlar hesabına təmin edir, hər il minlərlə manat qazanc götürürlər.

Bu yerdə demək yerinə düşər ki, Naxçıvan cəvizi nəinki paytaxt Bakıda, elə yaxın xarici ölkələrdə də adıyla tanınır. Hətta paytaxt Bakıda başqa bölgələrin cəvizlərini "Naxçıvan cəvizi adı ilə baha qiymətə camaata "oxudanlar" da az görməmişik. Çünki saf su, təmiz hava, münbit torpaq və bol günəş enerjisi bu diyarın məhsullarına ayrıca dad-tam verir. Naxçıvanın cəviz ləpəsinin hər kiloqramının qiyməti 25-30 manat arasında dəyişir və alıcısı da həmişə başının üstündədir. Hələ yalnız Naxçıvan mətbəxinə xas olan cəviz mürəbbəsini demirik. Cəvizin kalından hazırlanan bu mürəbbənin hər 100 qramı 8-10 manat arasında satılır. Evlərdə xanımlar tərəfindən bişirilməklə yanaşı, Ordubadda dövlət maliyyə dəstəyi hesabına ayrıca cəviz mürəbbəsi istehsalı müəssisəsi də yaradılaraq fəaliyyəti təmin edilib. Naxçıvanın cəvizli şirniyyatlarının – şəkərburanın, paxlavanın, sucuğun şöhrəti isə elə indi olduğu kimi, qədim dövrlərdə də dünyanı dolaşıb.

Naxçıvanda həm də cəviz ağacının mənəvi çəkisi böyükdür. Kəndlərimizdə cəviz ağacı hər bir evin ruzi-bərəkəti hesab olunur. Cəvizlə bağlı yaranan inanclar, deyimlər min illərdir ki, məişət mədəniyyətimizə, folklorumuza ayaq açıb.

İndi mən soruşuram, bu qədər gəlir gətirən, maddi və mənəvi çəkisi böyük olan bir sahənin fəaliyyətinə "mərsiyəxanlar"ın məntiqi ilə yanaşsaq, qadağa qoymaq və ya məhdudlaşdırmaq nə dərəcədə inandırıcı görünür?

Siz də yaxşı bilirsiniz ki, əslində, bu, təzə adət deyil… Neçə illərdir, hər birimiz müşahidə edirik ki, kim özünə mətbuatda, sosial şəbəkələrdə "xal" yığmaq istəyir, əvvəlcədən Naxçıvanın adından istifadə etməyə, özündən "sensasion" xəbərlər düzüb-qoşmağa. Bir növ, "qarğa, məndə qoz var", – deyib diqqəti üzərlərinə çəkmək yolunu tutur...

Təbii ki, yalanın da gücü onun sürətlə yayılmasındadır və bir də atalar demiş, yalan danışan hamını qanmaz hesab edir.

Naxçıvan televiziyasının əməkdaşları eləməyib tənbəllik, məsələni yerindəcə araşdırdılar. Şərur, Babək, Şahbuz, Ordubad, Culfa rayonlarının kəndlərində aparılan çəkiliş zamanı məlum oldu ki, həmişəki kimi, bu "şok məlumat" da tamamilə cəfəngiyyatdır (Arzu edənlər həmin videomateriallı *naxcivantv.az* saytından izləyə bilərlər). Culfa rayonunun Milax kəndindən Mehdi Milaxlı adlı sosial şəbəkə istifadəçisi Naxçıvan televiziyasına təşəkkür edərək yazıb: "Vaxtında aparılan düzgün araşdırma və dolğun informasiya cəviz ağaclarının geniş şəkildə əkildiyi bütün Milax kəndinin əhalisini rahatladtı".

Əslində, tam real mənzərə nədir? Reallıq odur ki, illərdir, qədim diyarda geniş ekoloji proqramlar icra olunur, bu proqramların tərkib hissəsi kimi, hər həftə iməciliyə çıxıb ağac əkib-becərmək mədəniyyəti formalaşıb. İndi Naxçıvanda uşaqdan-böyüyə hamı ağac əkir, bağ salır, özünü təbiətdən ayrı tutmur. Təkcə ötən il muxtar respublikada kənd təsərrüfatının inkişafına ayrılan kreditlər hesabına 546 hektar ərazidə 100 minlərlə ağac əkilib, yeni bağlar salınıb. Şərur rayonunda sahibkar Xeyrulla Mustafayev 700 cəviz ağacı əkib, gözəl bir bağ salıb. Daha bir cəviz bağı isə Aşağı Daşarx kəndində iməciliklə yolu ilə salınıb. Bu xeyirxah işlər Şahbuz rayonunda da diqqətdən kənarda qalmayıb. Ötən payız iməciliklərində İşgəsu massivində 3 hektarlıq daha bir məhsuldar sortlardan ibarət cəviz bağı salınıb. Babək rayonunda sahibkar Faiq Bayramov dövlətdən güzəştli kredit götürərək yeni cəviz bağı salıb. Naxçıvanın Şahbulaq, Kükü, Biçənək, Milax, Ərəfsə, Yuxarı Qışlaq, Axura, Havuş, Buzqov kimi yüzlərlə kəndində əhali öz pay torpaqlarında cəviz əkinlərini genişləndirir. Nəsə ki, belə faktlar yüzlərlədir və mən onların hər birini ayrı-ayrı sadalayıb sizin dəyərli vaxtınızı almaq istəmirəm. Üstəlik, muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə ikinci dövlət proqramı da qəbul olunub ki, bu proqram çərçivəsində çay vadilərinə, əkinəyararsız dərə-təpələrə 10 minlərlə cəviz ağacı əkilib və əkilməkdədir.

**Hə, belə-belə işlər...**

Bu dəfəki çirkin kampaniyaçılıq nədənsə mənə 20-25 il əvvəli xatırlatdı. O zaman da məqsədli şəkildə, təxminən, butipli şayiələr yaymışdılar ki, guya muxtar respublikada dövlət cəviz ağaclarını kəsdirəcək. Kənd yerlərində yaşayan sadəlövh insanların bir qismi bu fitnə-felə uyaraq 30-40 ildir barverən cəviz ağaclarını kəsib Türkiyədən gələn mebel fabriki dəllallarına su qiymətinə satdılar. Onlar camaatı aldadır, ucuz qiymətə aldıqları ağaclardan hazırladıqları mebel avadanlıqlarını 50 qat bahasına elə həmin adamların özlərinə sırıyırdılar. Bəzən də onların boynuna yekə bir minnət yükü qoyurdular ki, bəs sənin kəsdiyin cəviz ağacı xoşumuza gəlmir, almırıq. Neçə deyərlər, biz ümid olmuşduq daza, daz da özünü qoymuşdu naza.

Əlqərəz, indi biz bir daha görürük ki, bu yarımçıq müxbirlərin özləri kimi sözləri də tükənib. Ona görə də sözü qurtaran aşıqlar kimi başlayıblar "neynimneynim" deməyə. Eybi yoxdu, siz "söhbətinizdə" qalın, nə də olsa min yalan bir doğruya dəyməz…

Uinston Çörçill deyirdi ki, "Dəyişən şəraitə uyğunlaşmağın yeganə üsulu həmin şəraitlə bərabər dəyişməkdir". Hər halda, dəyişmək və insanlara faydalı işlərlə məşğul olmaq olar. Hələ də gec deyil...

**Sahil TAHİRLİ**
*jurnalist*

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalı xarici ölkələrdən gələn iştirakçıların yaddaşında dərin iz buraxıb. Həmsöhbət olduğumuz zəka sahibləri bundan sonra da ənənə halını alan festivalın daim iştirakçısı olmaq arzusundadırlar.***

## "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının iştirakçıları: *Təşkilatçılıq çox yüksək səviyyədə idi*

**Valeri QRİNEV (beynəlxalq usta, Ukrayna):** "Festivalda uğurlu nəticələr əldə etdim. Yarışa başlamazdan əvvəl "A" qrupunda əmsalına görə 17-ci sırada mən idim və belə güclü zəka sahibləri arasında qalib olmağım gələcək karyeram üçün əhəmiyyətlidir. Onu da deyim ki, şahmatçı üçün əsas məsələ sakitlik və rahatlığın təmin olunmasıdır. Naxçıvanda bu baxımdan heç vaxt əziyyət çəkmədik. 10 günə yaxın burada qaldım, Naxçıvandakı sabitlik, şəhərin daim təmiz olması məni çox təəccübləndirdi. Təşkilatçılığa isə söz ola bilməz. Hər kəs bizimlə maraqlanırdı. Bu işdə əməyi olan, bizə bu şəraiti yaradan, vətənini sevən və idmana dəyər verən insanlara minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, gələn il keçiriləcək festivalda yenidən iştirak edəcəyəm".



**İqor XENKİN (beynəlxalq qrossmeyster, Almaniya):** "Deyə bilərəm ki, Naxçıvan bizim üçün artıq doğma məkana çevrilib. Hər il təşkil olunan festivalda iştirak etmək qürurvericidir. İlk olaraq beynəlxalq turnirdə çıxış barədə fikir bildirmək istərdim. Üzləşdiyim bir məğlubiyyət məni liderlərdən geri saldı və turniri 9-cu pillədə başa vurdum. Təbii ki, nəticəmdən razı deyiləm, lakin bu, şahmatdır, hər şeylə üzləşmək olar. Təşkilatçılığa gəlincə, hər il biz yeniliklərlə qarşılaşırıq. Bu il də şahmatçıların rahatlığı, onların tam olaraq oyunlara adaptasiya olmaları üçün şərait yaradılıb. Görüşlərdən sonra vaxt tapdıqca Naxçıvanı gəzməyə çalışdım. Şəhərinizi gəzdim və maraqlı bir məqam da bu idi ki, şəhərin mərkəzi də, kənarları da təmiz və gözəldir. İnsanlar mehriban və gülərüzdürlər. Naxçıvanda keçirilən Beynəlxalq Şahmat Festivalında yenidən iştirak etdiyim üçün özümü xoşbəxt hiss edirəm".



**Vladimir BURMAKİN (beynəlxalq qrossmeyster, Rusiya):** "Yenidən burada gözəl insanları görmək məni çox sevindirdi. Naxçıvanda tarixiliklə müasirlik, necə deyərlər, birgə yaşayır. İnsan burada özünü çox rahat hiss edir. Bizim üçün hər cür şərait yaradılmışdı. Təşkilatçılar bizimlə hər dəqiqə maraqlanırdılar. Bu, bizi sevindirir. İdmançı üçün əsas məsələ ona göstərilən diqqətdir ki, bu da Naxçıvanda var. Burada çox güclü idman potensialı formalaşıb. Buna görə də gələcək festivallarda da iştirak etmək istəyirəm".



**Ceyhun MƏMMƏDOV**

## Uşaqlar Bəhruz Kəngərli Muzeyini və Bəhruz Kəngərli adına Rəssamlar Parkını ziyarət ediblər



*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti gəzinti təşkil olunub.*

Mayın 12-də nazirliyin təşkilatçılığı ilə distant dərslərə cəlb edilmiş eşitmə qabiliyyəti məhdud 10 uşaq Bakı şəhərindən dəvət olunmuş eşitmə qabiliyyəti məhdud şəxslərin tədrisi ilə məşğul olan Zərqələm İsmayılovanın müşayiətilə Bəhruz Kəngərli Muzeyini və Bəhruz Kəngərli adına Rəssamlar Parkını ziyarət ediblər.

Burada məlumat verilib ki, muzey Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin xatirəsinə yaradılıb. Muzeydə rəssamın həyat və fəaliyyəti ilə bağlı sənədlər, onun rəsm əsərləri nümayiş etdirilir. Eksponatlar rəssamın həyat və yaradıcılığı barədə uşaqlarda dolğun təəssürat yaradıb, onlar muzeydən xoş ovqatla ayrılıblar.

Muzeylə tanışlıqdan sonra uşaqlar Bəhruz Kəngərli adına Rəssamlar Parkında da olublar.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu dekan vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

1. Pedaqoji fakültə – dekan – pedaqogika üzrə fəlsəfə doktoru, dosent – 1 yer

Müsabiqə üçün sənədlər elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

*Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Naxçıvan Müəllimlər İnstitutu.*
*Telefon: 545-32-02*
*Rektorluq*

***İtmişdir***

Zeynalov Taleh Bayram oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

## IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş sərgi təşkil edilib

***Naxçıvan Dövlət Universitetində IV İslam Həmrəyliyi Oyunlarının başlanması münasibətilə sərgi təşkil olunub.***

İncəsənət fakültəsinin sərgi salonuna toplaşanlar qarşısında çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkəmizin növbəti beynəlxalq miqyaslı tədbirə – İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsini özünü dünyəvi dövlət kimi bütün dünyaya təqdim edən, tolerantlıq nümunəsi olan Azərbaycanın dini dəyərlərə sadiq olduğunu bir daha nümayiş etdirmək fürsəti kimi dəyərləndirib. O, respublikamızın İslam ölkələrinin həmrəyliyinə, dünyada sülhə, əmin-amanlığa verdiyi töhfələrdən danışıb. Rektor vurğulayıb ki, doğma Naxçıvanımızın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Sonra rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

**Səadət ƏLİYEVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 404